# "ALİM ÖMRÜ" İŞIĞINDA

**İyunun 9-da AYB-nin Natəvan klubunda AMEA Folklor İnstitutunun əməkdaşı Sahibə Sədnikqızının "Alim ömrü" kitabının təqdimatı keçirildi. Tədbiri Azərbaycan Jurnalistlər Birliyinin sədri Rəşad Məcid giriş sözü ilə açdı. AYB-nin sədri yazıçı Anarın təbrik və salamlarını iştirakçılara çatdırdı və məclisi aparmaq üçün sözü professor Seyfəddin Rzasoya verdi.**

Seyfəddin müəllim çıxışında akademik Muxtar Kazımoğlunun təbriklərini çatdırdıqdan sonra Sahibə xanımın atasının xatirəsi işığında qələmə aldığı kitabın mənəvi-estetik məziyyətlərindən bəhs açdı. Daha sonra sözü professor Qəzənfər Paşayevə verdi. Qəzənfər müəllim Sədnik müəllimlə dəfələrlə xarici səfərlərdə, Naxçıvanda olduqlarından danışaraq qeyd etdi ki, onunla söhbət edərkən adamın əhvalı açılırdı, könlü sevinirdi.

Sədnik müəllimin fədakar folklor toplayıcısı olmasından söz açan Qəzənfər Paşayev onun alimlik və pedaqoqluq fəaliyyətinə də toxundu. Kənd-kənd, oba-oba gəzib folklorumuzun toplanması və tədqiqi ilə məşğul olan Sədnik Paşayevin həm də Gəncədə böyük bir folklor kollektivi yaratdığını da qeyd etdi. Bildirdi



ki, M.H.Təhmasibin 2 aspirantı olub: biri Sədnik müəllim, o biri də Bəhlul Abdulla.

Professor Maarifə Hacıyeva da söhbətində Sədnik müəllimlə bağlı xoş xatirələrini dilə gətirdi.

Folklor İnstitutunun əməkdaşı Əli Şamil çıxışında 1937-ci il repressiyasından sonra yaranan xofu Sədnik müəllim, Mürsəl Həkimov, Vaqif Vəliyev, Paşa Əfəndiyev kimi folklorşünasların sındırdığını və mühüm xidmətlər göstərdiklərini xatırladıb, Sədnik müəllimlə bağlı xatirələrini bölüşdü.

BDU-nun türkologiya kafedrasının professoru Firuzə Ağayeva, Əlyazmalar İnstitutunun elmi işçisi Aytən Əliyeva, filologiya elmləri doktoru İslam Sadıq, professor Leyla Kamranqızı, şairə Fazilə Qaraxanqızı, fəlsəfə doktorları Tahir Şirvanlı, Şəlalə Ana Hümmətli, İlhamə Qəsəbova, Tahir Orucov, Tacir Səmimi? Mətanət Yaqubqızı, Afaq Xürrəmqızı, Qalib Sayılov, Elçin Qaliboğlu, Atif İslamzadə və başqaları çıxışlarında Sahibə Sədnikqızının bir övlad kimi valideynlərinə sonsuz sevgi və ehtiram işığında qələmə aldığı kitabının mövzusu, aktuallığı və əhəmiyyəti ilə bağlı fikirlər səsləndirdilər.

Axırda Sahibə xanım çıxış etdi, iştirakçılara minnətdarlıq hisslərini ifadə etdi və kitabı yazarkən bir övlad kimi keçirdiyi həyəcanlarından və daşıdığı məsuliyyət duyğusundan geniş şəkildə söhbət açdı.

**Şakir Əlifoğlu**